# Milli Dirçəliş Hərəkatı Partiyasının (MDH) nizamnaməsi.

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. **Milli Dirçəliş Hərəkatı Partiyası** (bundan sonra - Partiya) Azərbaycan Respublikasının vətəndaşları tərəfindən ölkənin siyasi həyatında və vətəndaşların siyasi iradəsinin ifadə olunmasında iştirak etmək məqsədi ilə irqi, etnik, dini, dil, cinsi, mənşə, əqidə və sosial mənsubiyyətindən asılı olmayaraq, onları ümumi siyasi ideya və məqsəd ətrafında birləşdirən, ölkənin siyasi həyatında iştirak edən qeyri-kommersiya hüquqi şəxsidir.

1.2. Partiya öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu, digər normativ hüquqi aktlar və bu Nizamnamə əsasında həyata keçirir.

1.3. Könüllülük, üzvlərinin hüquq bərabərliyi, özünüidarə, kollegiallıq, qanunçuluq və aşkarlıq Partiyanın fəaliyyət prinsipləridir.

1.4. Partiyanın müstəqil balansı, üzərində adı yazılmış möhürü, ştampı, Azərbaycan Respublikasının banklarında hesablaşma və digər hesabları və rekvizitləri vardır.

1.6. Partiyanın qısaldılmış adı **MDH**

1.7. Partiyanın qərargahının yerləşdiyi yer (hüquqi ünvan) Azərbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 177.

## 2. PARTİYANIN MƏQSƏDİ

2.1. Partiyanın məqsədi ***Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsindən, vətəndaş cəmiyyəti quruculuğu prinsiplərinə əsaslanan milli, dünyəvi, sosial, demokratik hüquqi dövlət kimi qorunması və inkişaf etdirilməsindən ibarətdir.***

2.2. Partiya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsini, ərazi bütövlüyünün parçalanmasını, hakimiyyətin zorla ələ keçirilməsini və ya saxlanılmasını, kütləvi iğtişaşlara, terrorçuluğa açıq çağırışlar

edilməsini, terrorçuluğun, dini ekstremizmin, zorakılığın və qəddarlığın, habelə irqi, dini, mənşə, cinsi, etnik və digər ayrı-seçkiliyin, həmçinin sağlamlığın və ətraf mühitin qorunmasına zidd olan hərəkətlərin təbliğini, irqi, dini və ya etnik düşmənçiliyin salınmasını məqsədəçatma üsulu kimi pisləyir.

## 3. PARTİYANIN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

3.1. Partiya aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:
3.1.1. ölkənin siyasi həyatında iştirak edir;
3.1.2. vətəndaşların siyasi iradəsinin ifadə olunmasında, həmçinin ictimai rəyin formalaşdırılmasında iştirak edir;
3.1.3. vətəndaşlar arasında siyasi maarifləndirmə işi aparır;
3.1.4. ümummilli dəyərləri və vətənpərvərliyi təbliğ edir;
3.1.5. üzvlərinin siyasi fəallığına dəstək verir;
3.1.6. üzvlərinin siyasi iradəsini ifadə edir;
3.1.7. seçkilərin, həmçinin ümumxalq səsverməsinin (referendumun) keçirilməsində iştirak edir;
3.1.8. müxtəlif məsələlər ilə bağlı rəy və təkliflərini təqdim etməklə Azərbaycan Respublikasının daxili və xarici siyasətinin formalaşmasına təsir göstərir.

## 4. PARTİYANIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

4.1. Partiyanın öz məqsədlərinə uyğun olaraq aşağıdakı hüquqları var:
4.1.1. məqsədləri və fəaliyyəti barədə informasiyanı sərbəst yaymaq;
4.1.2. ideyalarını, məqsədlərini və proqramını təbliğ etmək;
4.1.3. digər siyasi partiyalarla fəaliyyətin əlaqələndirilməsi, habelə ümumi mənafelərin təmsil və müdafiə edilməsi məqsədilə könüllülük əsasında birləşib ittifaqlar və siyasi bloklar yaratmaq;
4.1.4. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və bələdiyyə seçkilərinin, həmçinin ümumxalq səsverməsinin (referendumun) keçirilməsində iştirakla bağlı Azərbaycan Respublikasının Seçki Məcəlləsində nəzərdə tutulmuş hüquqları həyata keçirmək;
4.1.5. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı iclaslar, görüşlər konfranslar və müşavirələr keçirmək;
4.1.6. “Sərbəst toplaşmaq azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yığıncaq, mitinq, nümayiş, küçə yürüşü və piket keçirmək;
4.1.7. hüquqlarının və qanuni mənafelərinin pozulması ilə bağlı inzibati və məhkəmə qaydasında şikayət vermək, Partiya üzvünün razılığı ilə onun Partiya üzvlüyü ilə bağlı hüquq, azadlıq və qanunla qorunan mənafeyinin müdafiəsi üçün də şikayət vermək;
4.1.8. bu Nizamnamədə və Partiyanın proqramında qeyd olunmuş məqsədlərlə (hədəflərlə) razı olmayan şəxsi üzvlüyə qəbulundan imtina etmək;
4.1.9. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı təşəbbüslə çıxış etmək, o cümlədən dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına müvafiq təkliflər vermək;
4.1.10. hüquqi aktların layihələrini hazırlamaq və aidiyyəti üzrə təqdim etmək, həmçinin dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları tərəfindən hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, hüquqi aktlarda dəyişikliklər edilməsi, onların şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi ilə bağlı məsələ qaldırmaq;
4.1.11. “Media haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq çap mediasını təsis etmək (çap mediasının iştirakçısı olmaq);

4.1.12. sahibkarlıq fəaliyyəti (ictimai-siyasi nəşrlərin, digər təbliğat və təşviqat materialların hazırlanması və satışı, həmçinin çap mediasını təsis etmək (çap mediasının iştirakçısı olmaq) məqsədləri üçün təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək) ilə məşğul olmaq;

4.1.13. beynəlxalq əməkdaşlıq əlaqələri qurmaq (digər ölkələrin siyasi partiyaları ilə əməkdaşlıq etmək, sazişlər bağlamaq, siyasi partiyaların beynəlxalq ittifaqlarına üzv olmaq);

4.1.14. Azərbaycan Respublikasının vətəndaşlarından ianələr qəbul etmək;

4.1.15. qısaldılmış ada, həmçinin embləmə, bayrağa və s. rəmzlərə malik olmaq;

4.1.16. konfranslar, görüşlər, müzakirələr və digər ictimai tədbirlər keçirmək;

4.1.17. Azərbaycan Respublikasının Dövlət Bayrağını keçirdiyi tədbirlər zamanı qaldırmaq (asmaq) və ya yerləşdirmək;

4.1.18. bu Nizamnaməyə və Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq digər hüquqları həyata keçirmək.

4.2. Partiyanın öz məqsədlərinə uyğun olaraq aşağıdakı vəzifələri var:

4.2.1. öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, digər normativ hüquqi aktlarına və bu Nizamnaməyə riayət etmək;

4.2.2. üzvlərinin reyestrini aparmaq;

4.2.3. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və bələdiyyə seçkilərinin, həmçinin ümumxalq səsverməsinin (referendumun) keçirilməsində iştirakla bağlı Azərbaycan Respublikasının Seçki Məcəlləsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirmək;

4.2.4. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mühasibat uçotunu aparmaq, maliyyə hesabatını tərtib etmək, qanunvericilikdə nəzərdə tutulmuş qaydada maliyyə fəaliyyətinə dair əlavə məlumat və sənədləri aidiyyəti üzrə təqdim etmək;

4.2.5. fiziki və hüquqi şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləmək;

4.2.6. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin fəaliyyətinə, həmçinin digər şəxslərin sahibkarlıq fəaliyyətinə müdaxilə etməmək;

4.2.7. digər siyasi partiyanın öz siyasi ideyalarını və baxışlarını azad və sərbəst yaymaq hüququna hörmət bəsləmək;

4.2.8. keçirdiyi mərasimlər və digər təntənəli tədbirlər zamanı Azərbaycan Respublikasının Dövlət Bayrağını qaldırarkən və ya asarkən Azərbaycan Respublikası Dövlət Himninin ifa edilməsini təmin etmək;

4.2.9. bu Nizamnaməyə və Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq digər vəzifələri yerinə yetirmək.

4.3. Bu Nizamnamənin 4.1.12-ci bəndində nəzərdə tutulanlar istisna olmaqla, partiya sahibkarlıq fəaliyyətinin digər növləri ilə məşğul ola bilməz.

## 5. PARTİYADA ÜZVLÜK MƏSƏLƏLƏRİ

5.3. Üzvlük haqqının miqdarı və ödənilməsi qaydası partiyanın ***Kuralı*** tərəfindən müəyyən edilir. 14.1. Partiyaya üzvlük fərdidir. Partiyaya üzvlük və üzvlüyü tərk etmək könüllüdür. Partiya üzvü digər siyasi partiyaların üzvü ola bilməz. Partiya tərəfindən üzvlərinin qeydiyyatı aparılır.

14.2. 5.1. Bu Nizamnaməni qəbul edən 18 yaşına çatmış tam fəaliyyət qabiliyyətli Azərbaycan Respublikası vətəndaşları Partiyanın üzvü ola bilərlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə siyasi partiyaya üzvlüyü qanunla qadağan edilən digər şəxslər Partiyanın üzvü ola bilməz. Partiyaya üzvlük və üzvlüyü tərk etmək

könüllüdür. Partiya üzvü digər siyasi partiyaların üzvü ola bilməz. Partiyanın üzvü Partiyanın yalnız bir yerli təşkilatında (olduğu halda) qeydiyyatda ola bilər.

5.2. Partiya üzvlüyünə qəbul həmin şəxsin yerli təşkilatlarının daimi fəaliyyət göstərən orqanlarına yazılı müraciəti əsasında həyata keçirilir. Üzvlüyə qəbul edilmə haqqında qərar Partiyanın yerli təşkilatlarının ***səlahiyyətli nümayəndəsi*** tərəfindən qəbul edilir. Partiya üzvünə onun Partiya mənsubiyyətini təsdiq edən üzvlük vəsiqəsi verilir.

***14.4. Partiyanın üzvlüyündən çıxmaq könüllüdür. Hər bir partiya üzvünün üzvlüyünə xitam verilməsi barədə qərarı Kural qəbul edir.***
***14.5. Quvvədə olan qanunvericiliyə uyğun olaraq siyasi partiyada fəaliyyəti qadağan edilmiş şəxslərin rəsmi xidmət dövrü bitənədək Partiyada üzvlüyü dayandırılır.***
***14.6. Üzvlük haqlarının məbləği və ödənilməsi qaydası Kural tərəfindən müəyyən edilir.***
***14.7. partiyanın "siyasi partiyalar haqqında" qanunun 5.1-ci maddəsində nəzərdə tutulmuş təsisçiləri partiyanın üzvləri hesab olunurlar.***
14.8

5.4. Partiya üzvünün aşağıdakı hüquqları var:
5.4.1. bu Nizamnamədə müəyyən edilmiş qaydada Partiya orqanlarının və struktur qurumlarının təşkilində iştirak etmək, həmçinin onlara seçilmək (təyin edilmək);
5.4.2. Partiyanın orqanlarına və struktur qurumlarına sorğu, təklif, ərizə və şikayət ilə müraciət etmək və öz müraciətinə dair mahiyyəti üzrə cavab almaq, həmçinin onların fəaliyyəti haqqında məlumat almaq;
5.4.3. Partiya orqanlarının və struktur qurumlarının fəaliyyəti ilə bağlı, o cümlədən hərəkət və ya hərəkətsizliyindən şikayət etmək;
5.4.4. öz iradəsini sərbəst formada ifadə etmək;
5.4.5. Partiyanın üzvlüyündən çıxmaq;
5.4.6. Azərbaycan Respublikasının normativ hüquqi aktlarına və bu Nizamnaməyə uyğun olaraq digər hüquqları həyata keçirmək.
5.5. Partiya üzvünün aşağıdakı vəzifələri var:
5.5.1. bu Nizamnamə və Partiyanın proqramı ilə tanış olmaq;
5.5.2. bu Nizamnamə və Partiyanın proqramında göstərilmiş tələblərə əməl etmək;
5.5.3. Partiya orqanlarının və struktur qurumlarının qanuni qərarlarını yerinə yetirmək;
5.5.4. Partiyanın fəaliyyətində iştirak etmək;
5.5.5. üzvlük haqqını ödəmək;
5.5.6. Partiyanın adına, məqsəd və vəzifələrinə xələl gətirən hərəkətlərə yol verməmək;
5.5.7. Partiya tərəfindən aparılan üzvlərin reyestrində özünə aid olan məlumatlarda baş vermiş dəyişikliklər barədə Partiyaya məlumat vermək;
5.5.8. Azərbaycan Respublikasının normativ hüquqi aktlarına və bu Nizamnaməyə uyğun olaraq digər vəzifələri yerinə yetirmək.
5.6. Partiya üzvlüyünə aşağıdakı hallarda xitam verilir:
5.6.1. şəxs öz ərizəsinə əsasən Partiyanın üzvlüyündən çıxdıqda;
5.6.2. şəxs öldükdə və ya məhkəmənin qərarı ilə ölmüş elan edildikdə;
5.6.3. şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə;
5.6.4. şəxs məhkəmənin qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;
5.6.5. şəxs Partiyadan xaric olunduqda.

5.7. Partiya üzvü intizam tənbehi qaydasında Partiyadan ***Kuralın*** üzvlərinin səs çoxluğu *(açıq və ya gizli səsvermə yolu)* ilə qəbul edilmiş qərarı ilə xaric oluna bilər. Partiyadan xaric olunma haqqında qərardan bir ay ərzində Nəzarət Təftiş Komissiyasına şikayət verilə bilər və həmin məsələyə həmin komissiyada 20 gün ərzində baxılır.

5.8. Partiyadan xaric olunma üçün aşağıdakılar əsas sayılır:

5.8.1. bu Nizamnamənin müddəalarını kobud pozan və Partiyanın nüfuzuna mühüm zərər vurmuş hərəkət və ya hərəkətsizlik etmək;

5.8.2. uzun müddət ərzində (bir ildən az olmayaraq) Partiyanın işində iştirak etməmək;

5.8.3. digər partiyaya üzv olmaq.

5.9. bu Nizamnamənin tələblərini pozan və ya Partiyanın nüfüzuna zərər vuran Partiya üzvünə aşağıdakı intizam tənbehlərindən biri tətbiq edilə bilər:

5.9.1. xəbərdarlıq;

5.9.2. töhmət;

5.9.3. Partiyada tutduğu seçkili vəzifədən azad etmək;

5.9.4. Partiyadan xaric etmək.

5.10. İntizam tənbeh tədbirləri yerli təşkilatların təqdimatı əsasında ***Kuralın*** qərarı (sadə səs çoxluğu) ilə qəbul edilir.

5.11. ***Kural*** tərəfindən üzvlükdən xaricedilmə haqqında qərarın verilməsi və ya üzvlükdən çıxarmağa dair ərizənin verilməsi üzvlükdən çıxma faktını Partiya tərəfindən qeydə almaq üçün əsasdır.

5.12. Partiya ilə üzvləri arasında yaranan mübahisələr bu Nizamnamədə nəzərdə tutulmuş partiyadaxili qaydada həll olunur. Partiyanın üzvü Partiya orqanlarının və struktur qurumlarının fəaliyyəti ilə bağlı, o cümlədən hərəkət və ya hərəkətsizliyindən şikayətedə bilər.

5.13. Yenidən təşkil olunan, ləğv edilən yerli təşkilatların üzvlərinin daha yaxın inzibati ərazi vahidlərində olan digər yerli təşkilatlara köçürülməsi məsələsi ***Kuralın*** sadə səs çoxluğu ilə qəbul edilmiş qərarı əsasında həll edilir.

5.14. Partiya üzvlərinin reyestrini (adı, soyadı, atasının adı, doğulduğu tarix, qeydiyyat ünvanı, qeydiyyatda olduğu partiyanın yerli təşkilatı (olduğu halda) və əlaqə telefon nömrəsi göstərilməklə) aparır.

## 6. PARTİYANIN ORQANLARI VƏ STRUKTUR QURUMLARI

**Partiyanın strukturu**

6.1. Partiyanın Qurultayı, Sədri ,kollegial idarəetmə orqanı (Kural) nəzarət orqanı (Nəzarət-Təftiş Komissiyası), onun orqanlarıdır.

***6.2 . Partiyada müvafiq istiqamətlər üzrə məşvərətçi qurumlar, partiyanın qərargahında cari işlərlə məşğul olmaq məqsədilə ayrıca bölmə, katiblik, aparat,departament və s., həmçinin yerli təşkilatlar yaradıla bilər.***

***6.3. . Partiyada müvafiq istiqamətlər üzrə məşvərətçi qurumlar, partiyanın qərargahında cari işlərlə məşğul olmaq məqsədilə ayrıca bölmə, katiblik, aparat,departamentin təşkili qaydası və səlahiyyətləri, onların səlahiyyət müddətləri partiya sədrinin sərəncamı və əsasnamələrlə müəyyən edilir.***

## 7. QURULTAY

7.1. Qurultay Partiyanın ali idarəetmə orqanıdır. Qurultay Partiyanın ***Kuralı*** tərəfindən beş ildə bir dəfədən az olmayaraq çağırılır. Partiyanın növbədənkənar Qurultayı ***Kuralın*** qərarı, səlahiyyətlərinə aid olan məsələlər çərçivəsində nəzarət orqanının, həmçinin partiya üzvlərinin ən azı üçdə iki hissəsinin ***Kurala*** edilmiş müraciəti əsasında da çağırılır.

7.2. Qurultay nümayəndələri ***Kural*** tərəfindən müəyyən olunmuş təmsilçilik normasına uyğun olaraq seçilirlər.

7.3. Qurultay nümayəndələrin ən azı 2/3-i iştirak etdikdə səlahiyyətli sayılır. Qurultayın qərarları bu Nizamnamədə müəyyən edilmiş hallar istisna olmaqla, Qurultay nümayəndələrinin sadə səs çoxluğu *(açıq və ya gizli səsvermə yolu)* ilə qəbul edilir. Səsvermə forması Qurultay tərəfindən müəyyən edilir.

7.4. Qurultayın müstəsna səlahiyyətlərinə aşağıdakılar daxildir:

7.4.1. dövlət qeydiyyatına alındıqdan sonra bu Nizamnamədə dəyişikliklərin edilməsi, həmçinin yeni nizamnamənin qəbul edilməsi;

7.4.2. ***Kuraı*** və Nəzarət-Təftiş Komissiyasının say tərkibinin müəyyənləşdirilməsi, üzvlərinin seçilməsi və səlahiyyətlərinə xitam verilməsi;

7.4.3. Sədrin seçilməsi və səlahiyyətlərinə xitam verilməsi;

7.4.4. ***Kuralın***, Nəzarət-Təftiş Komissiyasının və Sədrin hesabatlarının dinlənilməsi;

7.4.5. Partiyanın fəaliyyətinin dayandırılması, yenidən təşkili və ləğvi haqqında qərarın qəbul edilməsi.

7.5. Bu Nizamnamənin 7.4.2-7.4.4-cü yarımbəndlərində göstərilən məsələlərə dair qərarlar sadə səs çoxluğu *(açıq və ya gizli səsvermə yolu)* ilə, 7.4.1-ci və 7.4.5-ci yarımbəndlərdə nəzərdə tutulmuş məsələlərə dair qərarlar isə 2/3 səs çoxluğu *(açıq və ya gizli səsvermə yolu)* ilə qəbul edilir.

**8. *Kural.***

***8.1. Kural Partiyanın qurultaylar arası dövrdə daimi fəaliyyət göstərən rəhbər orqanıdır. Kuralın say tərkibi Qurultay tərəfindən müəyyənləşdirilir. Kural üzvləri Qurultay tərəfindən Partiya Sədrinin təqdimatı əsasında beş il müddətinə seçilir və səlahiyyətlərinə xitam verir.***
***8.2.Üzvlər vaxtından əvvəl vəzifələrindən azad oluna bilər.***
***Kuralı üzvlərdən tərk edən olarsa, Kural özü öz tərkibinə yeni üzvlər daxil etmək (kooptasiya) hüququna malikdir.***
***8.3. Partiyanın Sədri vəzifəsinə görə eyni zamanda Kuralın sədridir.***
***8.4. Kural:***
***8.4.1. Növbəti və növbədənkənar Qurultay çağırır, Partiyanın Bölgə təşkilatlarının təmsilçilik normasını müəyyən edir, həmçinin fəaliyyəti barədə Qurultay qarşısında hesabat verir;***
***8.4.2. Partiyanın Proqramını qəbul edir, ona dəyişiklik və əlavələr edir;***
***8.4.3. Partiyanın Qadınlar birliyinin və Gənclər Birliyinin, Departamentlərin növbədənkənar iclaslarını çağırır;***
***8.4.4. Partiyanın Departamentlərinin fəaliyyətinə nəzarəti həyata keçirir və Nizamnamədə nəzərdə tutulmuş hallarda onların qərarlarını ləğv edir;***
***8.4.5. Gənclər Birliyinin və Qadınlar birliyinin əsasnaməsini hazırlayır ,fəaliyyətinə nəzarəti həyata keçirir və Nizamnamədə nəzərdə tutulmuş hallarda onların qərarlarını ləğv edir;***
***8.4.6. Partiyanın Bölgə təşkilatlarının yaradılması, yenidən təşkil olunması və ləğv edilməsi haqqında qərarlar qəbul edir. Partiya sədri tərəfindən təyin olunan səlahiyyətli nümayəndələri təsdiq edir, həmçinin Bölgə təşkilatlarının fəaliyyətinə nəzarəti həyata keçirir və Nizamnamədə nəzərdə tutulmuş hallarda onların qərarlarını ləğv edir;***
***8.4.7. Azərbaycan Respublikasının Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikası Prezidentinin seçkiləri və Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı Partiyadan namizədləri irəli sürür;***
***8.4.8. yerli özünüidarəetmə orqanlarına seçkilər zamanı Partiyanın yerli təşkilatlarına namizədlər irəli sürməyə razılıq verir;***
***8.4.9. üzvlük biletinin formasını müəyyən edir;***
***8.4.10. üzvlük haqlarının məbləğini və ödənilməsi qaydasını müəyyən edir;***

***8.4.11. ölkənin və onun ayrı-ayrı bölgələrinin ictimai-siyasi həyatının mühüm məsələləri barədə Partiyanın mövqeyini əks etdirən bəyanatlar qəbul edir;***
***8.4.12. dövlət və yerli özünüidarəetmə orqanları, siyasi partiyalar, digər qurumlar ilə qarşılıqlı əlaqə qurur;***
***8.5. Kuralın iclasları Kuralın müəyyən etdiyi müddətdə (lakin 3 ayda bir dəfədən az olmayaraq) keçirilir. Kuralın növbədənkənar iclasları Partiya Sədrinin qərarı və ya Kural üzvlərinin azı üçdə bir hissəsinin müraciəti ilə keçirilə bilər.***
***8.6. Kural üzvlərinin yarıdan çoxunun iştirak etdiyi iclaslar səlahiyyətli sayılır. Qərarların hansı səs çoxluğu ilə qəbulu və səs vermə forması (açıq və ya gizli səsvermə) Kural tərəfindən müəyyən edilir.***
***8.7. digər siyasi partiyalarla ittifaq və siyasi blok yaradılması barədə qərar qəbul edir;***
***8.8. partiyanın çap mediasının təsis edilməsi və ya onda iştirakı barədə qərar qəbul edir;***
***8.9. partiyanın nizamnaməsi ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində partiyanın əmlakının və vəsaitlərinin idarə edilməsi üzrə qərarlar qəbul edir.***
***8.10. - Partiyanın fəaliyyətinin müxtəlif sahələrinə dair Əsasnamələri müzakirə və qəbul edir;***
***8.11. - Partiya Sədrinin təqdimatı əsasında Partiyanın sədr müavinlərini təsdiq edir;***
***8.12. - Partiyanın Sədrinin, onun müavinlərinin, Nizamnamə Komissiyasının komitə və komıssiyalarının məlumatını, rəy və fəaliyyət proqramlarını dinləyir, müzakirə və təsdıq edir;***
***8.13 - Müvafiq əsasnaməyə uyğun olaraq Partiyanın fəxri adlarını, təltiflərini və mükafatlarını təsis edir;***
***8.14. - Partiyanın smeta xərclərini və ştat cədvəlini müzakirə və təsdiq edir, əmlak və vəsaitindən istifadə olunması haqqında müvafiq orqanların hesabatını dinləyıb müzakirə edir.***
***8.15. Kural Qurultayın müstəsna səlahiyyətinə aid olan məsələlərdən başqa, Partiyanın fəaliyyəti ilə bağlı bütün digər məsələləri də müzakirə və həll edır.***
***8.16 Kural öz işini " Kuralın Reqlamenti" əsasında qurur.***
***8.17. Kuralda qərarlar üçdə iki səs çoxluğu ilə qəbul olunur.***

## 9. Sədr

9.1. Sədr Partiyanın fəaliyyətinə cari rəhbərliyi həyata keçirir və ali seçkili vəzifəli şəxsi sayılır. Qurultay Sədri seçir və səlahiyyətlərinə xitam verir. Sədrin səlahiyyət müddəti 5 (beş) ildir. Səlahiyyət müddəti bitdikdə Sədr Qurultay tərəfindən yenidən seçilə bilər.

9.2. Sədr:

9.2.1. Partiyanın fəaliyyətinə cari rəhbərliyi həyata keçirir, etibarnaməsiz partiyanın adından hərəkət edir;

9.2.2. Partiyanı təmsil edir;

9.2.3. fəaliyyəti barədə Qurultay qarşısında hesabat verir;

9.2.4. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq etibarnamələr verir, Partiya adından əlaqələr qurur, bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində Partiyanın əmlakı və vəsaitləri üzərində sərəncam verir;

9.2.5. Partiyanın İdarə Heyətinin və Nəzarət-Təftiş Komissiyasının növbədənkənar iclaslarını çağırır;

***9.2.6.. Kurala rəhbərlik edir;***
***9.2.7. Qurultaya hesabat verir, Kuralın iclaslarına sədrlik edir;***

***9.2.8. Kuralın qərarlarını qanunvericiliyə və Nizamnaməyə zidd hesab etdikdə, həmin***

*qərarların icrasını növbəti iclasadək dayandırır və təklifini əsaslandıraraq yenidən Kurala təqdim edir.*

*9.2.9. Partiyanın Mərkəzi Aparatının strukturunu, həmçinin onun və yerli təşkilatların işçilərinin əməkhaqlarını təsdiq edir;*
*- öz səlahiyyətləri çərçivəsində müvafiq əmr, sərəncam və göstərişlər verir;*
*- təyın etdiyi şəxslərdən ibarət məsləhət şurası yaradır, müşavirlər təyin edir, Partiyanın Sədr Aparatını təşkil edir;*

*9.3. Kural və nəzarət orqanlarının (NTK) növbədənkənar iclaslarını çağırır;*
*9.4. partiyanın nizamnaməsinə uyğun olaraq sədr partiyanın fəaliyyətini həyata keçirmək üçün müxtəlif icra strukturları,departamentlər yarada,müavinlər təyin edə bilər.*
*9.5.Sədr və sədr müavinləri,departament rəhbərləri partiyanın qurultayarası kollegial idarəetmə orqanında (Kural) və məşvərətçi qurumlarında, o cümlədən onların rəhbərliyində təmsil oluna bilər.*

9.6. özünün, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etməsi, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1.6-cı maddəsi ilə müəyyən edilmiş qaydada Partiyanın nəzarət orqanına təqdim edir.

9.7. Sədr Partiyanın mənafeləri üçün vəzifələrini yerinə yetirərkən vicdanla, peşəkar qaydada və məntiqlə hərəkət etmək, Partiyanın və onun bütün üzvlərinin maraqlarına sadiq olmaq və Partiyanın maraqlarını öz maraqlarından üstün tutmaq, ehtiyatlı olmaq, habelə qərarların qəbulu zamanı ədalətli və qərəzsiz olmağa borcludur. Sədr, bu vəzifələrin Partiyanın maraqlarına uyğun olaraq yerinə yetirilməsi üçün məsuliyyət daşıyır.

9.8. Partiyanın sədri ***Yolbay*** adlanır .

## 10. Nəzarət Təftiş Komissiyası:

10.1. Nəzarət-Təftiş Komissiyası Partiyanın nəzarət-təftiş kollegial orqanıdır. Qurultay Nəzarət-Təftiş Komissiyasının say tərkibini müəyyənləşdirir, üzvlərini seçir və səlahiyyətlərinə xitam verir. Partiyanın nəzarət-təftiş kollegial orqanı Qurultay tərəfindən 5 illik müddətə seçilir.

10.2. Nəzarət-Təftiş Komissiyası:

10.2.1. bu Nizamnamənin və Partiyanın proqramının tələblərinin, Partiya orqanlarının qərarlarının yerinə yetirilməsinə nəzarəti həyata keçirir;

10.2.2. partiyadaxili nizam-intizam və maliyyə məsələlərinə nəzarəti həyata keçirir;

10.2.3. Partiyanın maliyyə-təsərrüfat fəaliyyətini təftiş edir;

10.2.4. nəzarətin və təftişin nəticələri barədə ***Kurala*** məlumat verir;

10.2.5. fəaliyyəti barədə Qurultay qarşısında hesabat verir;

10.2.6. növbədənkənar Qurultayın çağırılması barədə ***Kurala*** müraciət edir;

10.2.7. Partiya orqanlarının (Qurultay istisna olmaqla) və struktur qurumlarının qərarlarının normativ hüquqi aktlara və bu Nizamnaməyə uyğunluğunu bilavasitə yoxlayır, həmçinin onların hərəkət və ya hərəkətsizliyindən verilən şikayətlərə baxır.

10.3. Nəzarət-Təftiş Komissiyası özünün ilk iclasında öz tərkibindən sədr və katibi seçir. Nəzarət-Təftiş Komissiyasının iclasları 6 ayda bir dəfədən az olmayaraq keçirilir. Nəzarət-Təftiş Komissiyasının növbədənkənar iclasları Sədrin, ***Kuralın*** və Nəzarət-Təftiş Komissiyası üzvlərinin azı 1/3 hissəsinin tələbi ilə keçirilir.

10.4. Nəzarət-Təftiş Komissiyasının iclaslarını Komissiyanın sədri və ya onun göstərişi ilə Komissiya üzvlərindən biri aparır.

10.5. Üzvlərin ümumi sayının yarıdan çoxu iştirak etdikdə Nəzarət-Təftiş Komissiyasının iclası səlahiyyətli sayılır, qərarlar iclasda iştirak edən Komissiya üzvlərinin sadə səs çoxluğu *(açıq və ya gizli səsvermə yolu)* ilə qəbul edilir.

10.6. Nəzarət-Təftiş Komissiyası ehtiyac olduğu anda öz fəaliyyətinə mütəxəssisləri cəlb etmək hüququna malikdir.

10.7. Nəzarət-Təftiş Komissiyasının üzvü Partiyanın digər orqanlarında və struktur qurumlarında təmsil oluna bilməz.

11 .Partiyanın struktur qurumları.

Partiyanın struktur qurumlarına aşağıdakılar daxildir:

***- özək təşkilatı***

***- Bölgə (Rayon, şəhər) təşkilatı***

## 11.1. Partiyanın Bölgə (rayon, şəhər) təşkilatı

11.2. ***Bölgə*** təşkilatları ***Kuralın*** qərarı ilə təsis olunur və onların səlahiyyətləri, təşkilati strukturu, eləcə də orqanlarının təşkili, qərarların qəbulu və səlahiyyət müddəti ilə bağlı məsələləri ***Bölgə*** təşkilatları barədə Əsasnamə (bundan sonra - Əsasnamə) ilə tənzimlənir.

11.3. ***Bölgə*** təşkilatları Partiyanın ***Kuralı*** tərəfindən yaradılır və qeydiyyata alınırlar. Yerli təşkilatın adında Partiyanın adına və yaradıldığı müvafiq inzibati ərazi vahidinin adına istinad olunmalıdır.

11.4. Partiyanın ***Bölgə*** təşkilatları ilə qarşılıqlı münasibətləri çərçivəsində həmin qurumların Partiyanın yuxarı orqanlarının işində Qurultaya nümayəndə göndərmək, təkliflər, sənəd layihələri və digər materiallar vermək hüququna malikdirlər.

11.5. ***Bölgə*** təşkilatları öz fəaliyyətlərini Azərbaycan Respublikası qanunvericiliyi, bu Nizamnamə, Partiyanın rəhbər orqanlarının qərarları və Əsasnamə əsasında qururlar. ***Bölgə*** təşkilatının statusu Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq hüquqi şəxsin filialı statusuna bərabər tutulur.

***11.6.. Bölgə təşkilatının yuxarı orqanı konfransdır. Konfransda partiyanın Bölgə təşkilatında qeydiyyatda olan üzvlər iştirak edir. Konfransda Bölgə təşkilatının fəaliyyətinə dair hesabat dinlənilir, partiyada müəyyən olunmuş nümayəndəlik normasına uyğun olaraq partiyanın qurultayına nümayəndələr seçilir və partiyanın nizamnaməsinə uyğun olaraq digər məsələlər həll edilir.***

***11.7.. Partiyanın Bölgə təşkilatı Kuralın qərarı ilə yaradılır, yenidən təşkil və ləğv olunur. Kural yerli təşkilatın fəaliyyətinə nəzarəti həyata keçirir.***

***11.8. Partiyanın Bölgə təşkilatının fəaliyyətinə səlahiyyətli nümayəndə rəhbərlik edir.***

***11.9. Partiyanın sədri Bölgə təşkilat üzrə səlahiyyətli nümayəndəni bu vəzifəyə təyin və vəzifədən azad edir.***

***11.10.Bölgə təşkilatının cari fəaliyyəti səlahiyyətli nümayəndənin aparatı vasitəsi ilə həyata keçirilir. Aparata rəhbərliyi Bölgə təşkilatı üzrə səlahiyyətli nümayəndə həyata keçirir.***

***11.1.1. Bölgə təşkilatında qeydiyyatda olan Partiya üzvləri Bölgə təşkilatının Konfransında iştirak edir.***

***11.1.2..Konfransda Bölgə təşkilatının fəaliyyətinə dair hesabat dinlənilir və Kural tərəfindən müəyyən olunmuş təmsilçilik normasına uyğun olaraq Partiyanın Qurultayına nümayəndələr seçilir.***

***111.3. Bölgə təşkilatının Konfransında nünayəndəlik normasını Bölgə təşkilatı üzrə səlahiyyətli nümayəndə müəyyən edir.***
***11.1.4.. Bölgə təşkilatının tərkibində ərazi partiya təşkilatları ( Özəklər) fəaliyyət göstərir. Özək yerli təşkilat üzrə səlahiyyətli nümayəndənin qərarı ilə yaradılır, yenidən təşkil və ləğv olunur. Bölgə təşkilatında Özəyin qeydiyyatı aparılır.***
***11.1.5. Özəyin fəaliyyətinə həmin təşkilat üzrə səlahiyyətli nümayəndə rəhbərlik edir. Özək üzrə səlahiyyətli nümayəndəni Bölgə təşkilat üzrə səlahiyyətli nümayəndə təyin edir və fəaliyyətinə xitam verir ,nəzarəti həyata keçirir.***
***11.1.6. Özəyin fəaliyyəti yerli təşkilatlar haqqında Əsasnamə ilə tənzimlənir.***

***11.1.7. Bölgə təşkilatı Nizamnamə tələblərinə zidd fəaliyyət həyata keçirdikdə partiyanın Nəzarət Təftiş Komissiyasının rəyi əsasında Kural tərəfindən həmin təşkilatın ləğvi və ya yenidən təşkili məsələsinə baxılır, həmçinin Bölgə təşkilatının Nizamnamə tələblərinə zidd olan qərarlarını ləğv edir.***
***11.1.8. Partiya ləğv olunduğu halda Partiyanın Bölgə təşkilatları da ləğv edilirlər.***

## 12. PARTİYANIN FƏALİYYƏTİNİN MADDİ TƏMİNAT MƏSƏLƏLƏRİ

12.1. Partiyanın fəaliyyəti aşağıdakı mənbələr hesabına maliyyələşir:
12.1.1. üzvlük haqqı;
12.1.2. ianə;
12.1.3. dövlət maliyyə yardımı;
12.1.4. çap mediasının təsis edilməsindən (çap mediasının iştirakçısı olmaqdan), ictimai-siyasi nəşrlərin, digər təbliğat və təşviqat materialların hazırlanması və satışından əldə edilən gəlir;
12.1.5. mülki hüquq müqavilələri üzrə, o cümlədən əmlakından istifadə və onun satılmasından, borcun (kreditin) alınmasından əldə edilən vəsait;
12.1.6. hüquq varisliyi və vərəsəlik yolu ilə əldə edilən əmlak;
12.1.7. qanunla qadağan olunmayan digər gəlirlər.
12.2. Partiyanın mülkiyyətində və istifadəsində onun fəaliyyətini təmin etmək üçün lazım olan qanunla qadağan olunmayan istənilən əmlak ola bilər.
12.3. Partiyanın mülkiyyətində sənaye müəssisələri, kooperativlər, həmçinin istehsal müəssisələri (bu Nizamnamənin 4.1.12-ci yarımbəndində nəzərə tutulmuş hallarda istisna olmaqla) ola bilməz.
12.4. Partiyanın əmlakından yalnız bu Nizamnamədən və Partiyanın proqramından irəli gələn məqsəd və hədəflərə nail olunması, habelə vəzifələrin həyata keçirilməsi üçün istifadə edilir.
12.5. Partiyanın üzvləri Partiyanın əmlakına münasibətdə hüquqlara malik deyillər.
12.6. Partiyanın sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəliri üzvləri arasında bölüşdürülmür və yalnız bu Nizamnamə ilə müəyyən edilmiş məqsədlər üçün istifadə edilir.
12.7. Partiyanın Azərbaycan Respublikasının hüdudlarından kənarda istənilən növ (hər növ maliyyə təşkilatları daxil olmaqla) hesab açması qadağandır.
12.8. Partiya pul vəsaitini yalnız milli valyutada və nağdsız qaydada bank hesabına köçürmə yolu ilə qəbul edir.
12.9. Partiya qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər, həmçinin bu “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikası Qanununun 24.4.1-ci və 24.4.2-ci maddələrində nəzərdə tutulmuş hallar barədə məlumatı müvafiq qaydada Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edir.

12.9. Partiya forması və məzmunu qanunvericiliklə müəyyən edilmiş illik maliyyə hesabatını auditor rəyi ilə birlikdə hər il aprel ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edir və mediada dərc etdirir.

12.10. Partiya illik maliyyə hesabatını auditor rəyi ilə birlikdə mediada dərc etdirir.

12.11. Partiyada mühasibat uçotu "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aparılır

## 13. PARTİYANIN FƏALİYYƏTİNİN DAYANDIRILMASI VƏ BƏRPASI YENİDƏN TƏŞKİLİ VƏ LƏĞV EDİLMƏSİ

13.1. Partiya fəaliyyətini müvəqqəti dayandıra bilər. Bu barədə qərar (fəaliyyətin dayandırıldığı müddət dəqiq göstərilməklə) partiyanın qurultayı tərəfindən qəbul olunur.

13.2. Qurultayın keçirildiyi tarixdən 3 gün müddətində partiya qəbul olunmuş qərarı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edir və partiyanın fəaliyyətinin dayandırılması barədə məlumatı mediada dərc etdirir və (və ya) yayımlayır.

13.3. Partiyanın fəaliyyəti bu barədə qurultayın qərarı qəbul edildiyi tarixdən dayandırılmış hesab olunur.

13.4. Partiyanın fəaliyyətinin dayandırıldığı dövrdə onun orqanlarının və struktur qurumlarının nizamnaməsində nəzərdə tutulmuş səlahiyyət müddətlərinin axımı dayandırılır.

13.5. Partiyanın fəaliyyətinin dayandırıldığı müddət bitdikdən sonra partiyanın fəaliyyəti bərpa olunmuş hesab olunur.

13.6. Partiyanın fəaliyyətinin bərpa olunduğu tarixdən 3 gün müddətində partiya bu barədə məlumatı mediada dərc etdirir və (və ya) yayımlayır.

13.7. Partiya bu Nizamnamə və qanunvericiliklə müəyyən edilmiş qaydada yenidən təşkil oluna bilər.

13.8. Partiya Qurultayda iştirak edən nümayəndələrin 2/3 səs çoxluğu *(açıq və ya gizli səsvermə yolu)* ilə qəbul edilmiş qərarı və yaxud Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq məhkəmənin qərarı ilə ləğv oluna bilər. Partiya ləğv edildikdə onun borclarının ödənilməsindən sonra qalan əmlakı bu Nizamnamədə göstərilmiş məqsədlərə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir.

13.9. Partiyanın ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və digər normativ hüquqi aktlarına uyğun həyata keçirilir.

## 14. DİGƏR MÜDDƏALAR

14.1. Partiyanın fəaliyyəti ilə əlaqədar olan, lakin bu Nizamnamə ilə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq tənzimlənir.

14.2. Bu Nizamnaməyə edilmiş dəyişikliklər dövlət qeydiyyatına alındığı andan qüvvəyə minir.

14.3. Gələcəkdə bu Nizamnamənin hər hansı müddəası qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müvafiq norması tətbiq edilir.